**Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasında vətəndaşlıq məsələlərinə baxılmasını və onların həlli qaydalarını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

2. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 30 avqust 1999-cu il
189

Azərbaycan Respublikası Prezidentinin
1999-cu il 30 avqust tarixli 189 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında**

**ƏSASNAMƏ** [1]

1. Bu Əsasnamə Azərbaycan Respublikası vətəndaşlığının əldə edilməsi, bərpası, Azərbaycan Respublikası vətəndaşlığına xitam verilməsi məsələlərinə baxılması və onların həlli qaydalarını müəyyən edir.

2. Azərbaycan Respublikası vətəndaşlığını əldə etmək istəyən şəxs Azərbaycan Respublikası Prezidentinin adına yazılmış, nümunəsi Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilən ərizə-anketlə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinə müraciət edir. ~~(Bundan sonra Əsasnamədə Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Xarici İşlər Nazirliyi əvəzinə uyğun olaraq DİN, MTN və XİN yazılacaq).~~ [2]

Ərizə-anketə aşağıdakı sənədlər əlavə edilir:

4 ədəd 3x4 sm. ölçüdə fotoşəkil;

~~yaşayış yerindən ailə tərkibi haqqında arayış;~~ [3]

dövlət rüsumunun ödənilməsi haqqında sənəd;

~~Azərbaycan Respublikasında son beş il ərzində yaşaması barədə yaşayış yerindən arayış;~~

Azərbaycan Respublikasının dövlət dilini bilməsi barədə *Elm və Təhsil* Nazirliyindən arayış. [4]

Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsinin *və ya qaçqın statusu almış şəxslərə verilən qaçqın vəsiqəsinin* surəti *("Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsinə uyğun olaraq heç bir dövlətin vətəndaşlığına mənsub olmaması və Azərbaycan Respublikasında daimi yaşaması faktı məhkəmə tərəfindən müəyyən edilmiş şəxslərdən bu sənəd tələb olunmur);*[5]

~~Azərbaycan Respublikasında daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyat vəsiqəsinin surəti;~~[6]

*pasportun və ya digər sərhədkeçmə sənədinin surəti (həmin sənədlərə malik olmayan qaçqın statusu almış şəxslər, habelə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsinə uyğun olaraq heç bir dövlətin vətəndaşlığına mənsub olmaması və Azərbaycan Respublikasında daimi yaşaması faktı məhkəmə tərəfindən müəyyən edilmiş şəxslər istisna olmaqla);*[7]

qanuni gəlir mənbəyi olduğunu təsdiq edən sənəd (aşağıdakı sənədlərdən biri: iş yerindən arayış, pensiya, təqaüd və ya ünvanlı dövlət sosial yardım alınması haqqında arayış, fiziki şəxsin gəlirləri haqqında vergi orqanının arayışı, aliment alınması haqqında arayış, himayəsində olduğu şəxsin gəliri haqqında arayış, vərəsəlik şəhadətnaməsi və s.)

*Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsinə uyğun olaraq şəxsin heç bir dövlətin vətəndaşlığına mənsub olmaması, habelə Azərbaycan Respublikasında daimi yaşaması faktının müəyyən edilməsi haqqında məhkəmə qətnaməsinin surəti.* [8]

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin *beşinci* hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş elm, texnika, mədəniyyət və ya idman sahələrində yüksək nailiyyətləri olan şəxslər üçün – onu Azərbaycan Respublikasına dəvət edən dövlət orqanının əsaslandırılmış vəsatəti. [9]

Azərbaycan Respublikasının vətəndaşlığını qəbul etmək istəyən şəxs Azərbaycan Respublikası ilə ikili vətəndaşlığın qarşısının alınması haqqında beynəlxalq müqaviləsi olan dövlətin vətəndaşı olarsa, belə dövlətin səlahiyyətli orqanının onun Azərbaycan Respublikasının vətəndaşlığını qəbul etmək niyyətinə olan münasibətini təsdiq edən sənəd təqdim etməlidir. Əgər belə sənədin təqdim edilməsi müraciət edən şəxsdən asılı olmayan səbəblər üzündən mümkün deyilsə, şəxs ərizə-anketdə bunu mütləq göstərməlidir.[10]

*2-1. Şəxsin ərizə-anketində göstərilən məlumatların həqiqiliyi, habelə şəxsin Azərbaycan Respublikasının ərazisində*

*son 5 ili fasiləsiz olaraq daimi yaşaması Dövlət Miqrasiya Xidməti tərəfindən yoxlanılır ("Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsi nəzərə alınmaqla).*[11]

3. Vətəndaşlığa qəbul və ya bərpa olunmaq, *vətəndaşlıqdan çıxma* barədə vəsatət qaldıran şəxsin təqdim etdiyi sənədləri icraata qəbul edən Dövlət Miqrasiya Xidməti təqdim olunmuş sənədləri rəy verilmək üçün *Dövlət Təhlükəsizliyi Xidmətinə, Xarici Kəşfiyyat Xidmətinə* və Daxili İşlər Nazirliyinə göndərir. *Dövlət Təhlükəsizliyi Xidmətinə, Xarici Kəşfiyyat Xidmətinə* və Daxili İşlər Nazirliyinə göndərilmiş sənədlər rəylə birlikdə geri qaytarılır. Dövlət Miqrasiya Xidməti əsaslandırılmış rəy çıxardıqdan sonra toplanmış materialları Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyasında baxılmaq üçün Azərbaycan Respublikası Prezidentinin *Administrasiyasına* göndərir.[12]

4. Həmin Komissiyanın qəbul etdiyi qərar əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən şəxsin Azərbaycan Respublikası vətəndaşlığına qəbulu, bərpası və ya onun *vətəndaşlıqdan çıxması* barəsində müvafiq sərəncam verilir.[13]

*4-1. Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilmiş və ya Azərbaycan Respublikasının vətəndaşlığına bərpa edilmiş və 14 yaşı tamam olmuş şəxs Azərbaycan Respublikasına sadiq olacağı barədə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada və məzmunda Azərbaycan Respublikasının dövlət dilində and içir.*

*And içən Azərbaycan Respublikasının vətəndaşı andın mətnini imzalayır və bu sənəd Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində saxlanılır.*[14]

5. Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilməsi, bərpa edilməsi barədə vəsatət qaldıran şəxs Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunmuş dövlət quruluşunu zorakılıqla dəyişdirməyə və Azərbaycan Respublikasının ərazi bütövlüyünü pozmağa çağırışlar edərsə, dövlət təhlükəsizliyinə, ictimai asayişin qorunmasına, əhalinin sağlamlığına və ya mənəviyyatına zərər vuran fəaliyyət göstərərsə, irqi, dini və milli müstəsnalığı təbliğ edərsə, terrorçuluq fəaliyyəti ilə əlaqəsi olarsa, Azərbaycan Respublikası vətəndaşlığına qəbul, bərpa edilməsi barədə vəsatəti *Dövlət Təhlükəsizliyi Xidmətindən, Xarici Kəşfiyyat Xidmətindən* və Daxili İşlər Nazirliyindən alınmış rəylərlə birlikdə Dövlət Miqrasiya Xidməti tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyasında baxılmaq üçün Azərbaycan Respublikası Prezidentinin *Administrasiyasına* göndərilir. Təqdim edilmiş materiallar əsasında həmin Komissiya tərəfindən şəxsin vəsatəti rədd edilir. Azərbaycan Respublikası vətəndaşlığının əldə edilməsi və *vətəndaşlıqdan çıxma* ilə bağlı verilmiş müraciətlərə baxılmasının nəticələri barəsində onlara Dövlət Miqrasiya Xidməti və ya Xarici İşlər Nazirliyi tərəfindən yazılı məlumat verilir.[15]

6. Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barəsində vəsatət qaldıran şəxsin dövlət qarşısında icra edilməmiş öhdəlikləri və ya Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslərin mənafeləri ilə bağlı olan əmlak öhdəlikləri varsa, vətəndaşlıqdan çıxmaq haqqında vəsatəti toplanmış sənədlər əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyası tərəfindən rədd edilə bilər.

Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barəsində vəsatət qaldıran şəxs *cinayət işi üzrə təqsirləndirilən şəxs qismində* cəlb edilmişsə, yaxud onun barəsində qanuni qüvvəyə minmiş və icra edilməli olan məhkəmə hökmü varsa və ya şəxsin Azərbaycan Respublikası vətəndaşlığından çıxması Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi mənafelərinə ziddirsə, həmin hallar aradan qalxana qədər vətəndaşlıqdan çıxmağa yol verilmir.[16]

~~7. Azərbaycan Respublikasının vətəndaşlığı haqqında Azərbaycan Respublikasının Qanununun qüvvəyə mindiyi günədək Azərbaycan Respublikasının ərazisində yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər Azərbaycan Respublikasının vətəndaşı hesab olunur.~~[17]

8. 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının və ya başqa dövlətin vətəndaşı olmayan, lakin Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olan və 1999-cu il sentyabrın 30-dək Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilmək üçün ərizə ilə müraciət etmiş şəxslərə bu Əsasnamənin 2-7-ci *hissələrində* nəzərdə tutulmuş vətəndaşlığa qəbul edilmə qaydaları şamil edilmir. Həmin şəxslər ərizə ilə Daxili İşlər Nazirliyinə müraciət edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:[18]

yaşayış yerindən arayış;

şəxsin vətəndaşlığını təsdiq edən sənəd.

Ərizə ilə müraciət etmiş şəxslərə Daxili İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının vətəndaşının şəxsiyyətini təsdiq edən sənəd verilir.

9. Əvvəllər Azərbaycan Respublikasının vətəndaşı olmuş və ya Azərbaycan Respublikası vətəndaşlığına xitam verilmiş şəxsin öz vəsatəti əsasında o, Azərbaycan Respublikası vətəndaşlığına bərpa edilə bilər.

10. Bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin adına ərizə-anketlə müraciət edilir. Ərizə-anketə aşağıdakı sənədlər əlavə edilir:[19]

4 ədəd fotoşəkil (3x4 sm ölçüdə);

şəxsiyyəti təsdiq edən sənədin surəti;

~~Azərbaycan Respublikası vətəndaşlığına xitam verilməsi barədə sənəd;~~

~~ailə tərkibi haqqında arayış;~~

QİÇS müayinəsindən keçməsi və sağlamlıq haqqında arayış (vətəndaşlığa bərpa olunmaq üçün müraciət edən şəxs respublikanı tərk etməyibsə, bu sənəd tələb olunmur).

dövlət rüsumunun ödənilməsi barədə sənəd.[20]

11. Azərbaycan Respublikası vətəndaşlığına bərpa barədə Azərbaycan Respublikası Prezidentinin adına yazılmış vəsatətləri Azərbaycan Respublikasının ərazisində yaşayan şəxslər Dövlət Miqrasiya Xidmətinə, xarici dövlətlərdə yaşayan şəxslər isə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinə və ya konsulluq idarələrinə təqdim edirlər.[21]

12. Azərbaycan Respublikası vətəndaşlığına bərpa barədə Azərbaycan Respublikasının xaricdə olan diplomatik nümayəndəliklərinə və konsulluq idarələrinə daxil olmuş sənədlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə

göndərilir.

13. *Dövlət Miqrasiya Xidməti* və ya Xarici İşlər Nazirliyi həmin sənədləri baxılmaq üçün*Dövlət Təhlükəsizliyi Xidmətinə, Xarici Kəşfiyyat Xidmətinə və Daxili İşlər Nazirliyinə* göndərir, *Dövlət Təhlükəsizliyi Xidmətinə, Xarici Kəşfiyyat Xidmətinə və Daxili İşlər Nazirliyinə* göndərilmiş sənədlər *rəylərlə* birlikdə geri qaytarılır, *Dövlət Miqrasiya Xidməti* və ya Xarici İşlər Nazirliyi əsaslandırılmış rəy çıxardıqdan sonra toplanmış materialları Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyasında baxılmaq üçün Prezidentin *Administrasiyasına* göndərir. Bu Əsasnamənin 5-ci hissəsində nəzərdə tutulan məhdudiyyətlər aşkar edildikdə Azərbaycan Respublikası vətəndaşlığına bərpa haqqında şəxsin vəsatəti Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyası tərəfindən rədd edilir.[22]

14. Azərbaycan Respublikasında yaşayan uşağın valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxs, digəri isə əcnəbidirsə və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan uşağın valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxs, digəri isə vətəndaşlığı olmayan şəxsdirsə, uşaq Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş valideynin vəsatəti ilə Azərbaycan Respublikasının vətəndaşlığını əldə edə bilər.

15. Əcnəbi uşağı övladlığa götürən və ya vətəndaşlığı olmayan uşağı övladlığa götürən ər-arvaddan biri Azərbaycan Respublikasının vətəndaşı, digəri isə əcnəbidirsə, həmin uşaq övladlığa götürənlərin vəsatəti ilə Azərbaycan Respublikasının vətəndaşlığını əldə edə bilər.

16. Azərbaycan Respublikasının ərazisində yaşayan uşağın hər iki valideyni və ya yeganə valideyni Azərbaycan Respublikasının vətəndaşlığından çıxarsa, həm də üzərində Azərbaycan Respublikası vətəndaşlarının qəyyumluğu və ya himayəçiliyi müəyyən edilmiş uşağın böyüdülməsində iştirak etmirsə, valideynlərin, qəyyumun və ya himayəçinin vəsatəti ilə uşaq Azərbaycan Respublikasının vətəndaşlığını saxlaya bilər.

17. Bu Əsasnamənin 14-16-cı *hissələrində* nəzərdə tutulan hallarda Azərbaycan Respublikası Prezidentinin adına ərizə-anketlə müraciət edilir və ona aşağıdakı sənədlər əlavə edilir:[23]

valideynlərin (övladlığa götürənlərin, qəyyumların, himayəçilərin) vətəndaşlığı haqqında sənədlərin surəti;

övladlığa götürmə, qəyyumluq, himayəçilik haqqında sənədlərin surəti;

~~yaşayış yerindən ailə tərkibi haqqında arayış;~~ [24]

valideynin (övladlığa götürən əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin və 14-18 yaşında olan uşağın) notarial qaydada təsdiq edilmiş razılığı;

uşağın 4 ədəd 3x4 ölçüdə fotoşəkli.

uşağın doğum haqqında *şəhadətnaməsinin surəti*.[25]

həmin müraciətə bu Əsasnamənin 11-13-cü *hissələrində* nəzərdə tutulan qaydada baxılır.

18. Azərbaycan Respublikası vətəndaşlığından çıxma şəxsin vəsatəti üzrə həyata keçirilə bilər.

19. Azərbaycan Respublikası vətəndaşı Azərbaycan Respublikası vətəndaşlığından çıxması barədə Azərbaycan Respublikası Prezidentinin adına yazılmış ərizə-anketlə Dövlət Miqrasiya Xidmətinə və ya Xarici İşlər Nazirliyinə müraciət edir.

Ərizə-anketə aşağıdakı sənədlər əlavə olunur:

4 ədəd 3x4 ölçüdə fotoşəkil;

~~yaşayış yerindən ailə tərkibi haqqında arayış;~~

dövlət qarşısında icra edilməmiş öhdəliklərinin olmaması və ya Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslərin mənafeləri ilə bağlı olan əmlak öhdəliklərinin olmaması barədə müvafiq sənədlər (həmin sənədlərin siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyası tərəfindən təsdiq edilir);[26]

dövlət rüsumunun ödənilməsi barədə sənəd.

şəxsiyyəti təsdiq edən sənədin surəti. [27]

20. Azərbaycan Respublikası vətəndaşlığından çıxma barədə Azərbaycan Respublikası Prezidentinin adına yazılmış ərizə-anketi Azərbaycan Respublikası ərazisində yaşayan vətəndaşlar Dövlət Miqrasiya Xidmətinə, xarici dövlətlərdə yaşayan vətəndaşlar isə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və ya konsulluq idarələri vasitəsi ilə Xarici İşlər Nazirliyinə təqdim edirlər.[28]

21. *Dövlət Miqrasiya Xidməti* və ya Xarici İşlər Nazirliyi həmin sənədlərin bir nüsxəsini baxılmaq üçün *Dövlət Təhlükəsizliyi Xidmətinə, Xarici Kəşfiyyat Xidmətinə və Daxili İşlər Nazirliyinə* göndərir. *Dövlət Təhlükəsizliyi Xidmətinə, Xarici Kəşfiyyat Xidmətinə və Daxili İşlər Nazirliyinə* göndərilmiş sənədlər *rəylərlə* birlikdə geri qaytarılır, *Dövlət Miqrasiya Xidməti* və ya Xarici İşlər Nazirliyi əsaslandırılmış rəy çıxardıqdan sonra toplanmış materialları Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyasında baxılmaq üçün Azərbaycan Respublikası Prezidentinin *Administrasiyasına* göndərir.[29]

Bu Əsasnamənin 6-cı *hissəsində* göstərilmiş hallar aşkar olarsa, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyası tərəfindən həmin şəxsin Azərbaycan Respublikası vətəndaşlığından çıxma barədə vəsatəti rədd edilə bilər.[30]

22. Valideynlərdən birinin Azərbaycan Respublikası vətəndaşlığına xitam verilərsə, bu valideynin vəsatəti ilə və ya Azərbaycan Respublikasının vətəndaşı olan uşağı övladlığa götürən əcnəbilərin vəsatətləri ilə uşaq Azərbaycan Respublikası vətəndaşlığından çıxarıla bilər.

23. Bu hallarda ərizə-anketə bu Əsasnamənin 17-ci *hissəsində* nəzərdə tutulmuş sənədlər əlavə edilir və ərizə-anketə bu Əsasnamənin 11-13-cü *hissələrində* nəzərdə tutulmuş qaydada baxılır. [31]

*24. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə əsasən Azərbaycan Respublikası vətəndaşının digər dövlətin vətəndaşlığını könüllü əldə etməsi, xarici dövlətin dövlət və ya bələdiyyə orqanlarında, yaxud silahlı qüvvələrində və ya digər silahlı birləşmələrində könüllü xidmət etməsi, dövlətin təhlükəsizliyinə ciddi zərər vuran davranışı, terror fəaliyyətində iştirakı, Azərbaycan Respublikasının konstitusiya*

*quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətləri həyata keçirməsi, dini ekstremist fəaliyyətdə iştirakı, o cümlədən dini düşmənçilik zəminində dini məzhəblərin yayılması və ya dini ayinlərin icrası adı altında xarici dövlətdə silahlı münaqişədə iştirak etməsi və ya həmin münaqişəyə digər şəxsi cəlb etməsi, yaxud bu məqsədlə sabit qrup yaratması, habelə dini təhsil adı altında xarici dövlətdə hərbi təlim keçməsi, Azərbaycan Respublikasının vətəndaşlığına qəbul olunmaq üçün zəruri olan məlumatı qəsdən saxtalaşdırması və ya saxta sənəd təqdim etməsi Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi üçün əsas hesab edilir. Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi məsələsini, bu Əsasnamənin 6-cı hissəsində göstərilən məhdudiyyətlər nəzərə alınmaqla, məhkəmə həll edir.*

*25. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikası vətəndaşları 1 ay müddətində bu barədə yazılı məlumat verməlidirlər. Azərbaycan Respublikasının ərazisində yaşayan vətəndaşlar Dövlət Miqrasiya Xidmətinə, xarici dövlətlərdə yaşayan vətəndaşlar isə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və ya konsulluqları vasitəsilə Xarici İşlər Nazirliyinə (Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və ya konsulluqlarının olmadığı ölkələrdə yaşayan şəxslər birbaşa Xarici İşlər Nazirliyinə) məlumat verirlər. Bunun üçün onlar nümunəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş ərizə-anketi dolduraraq, onu internet informasiya ehtiyatı, poçt, elektron poçt vasitəsilə və ya şəxsən müvafiq dövlət orqanına təqdim etməlidirlər.*[32]

*25-1. Xarici İşlər Nazirliyi xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikası vətəndaşları barədə məlumatı həmin şəxslərin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə bağlı icraata başlanması üçün Dövlət Miqrasiya Xidmətinə təqdim edir.*

*25-2. Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin vətəndaşlığını könüllü qəbul etməsi haqqında məlumat daxil olduqda Dövlət Miqrasiya Xidməti şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə bağlı icraata başlayır.*

*25-3. Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin dövlət və ya bələdiyyə orqanlarında, yaxud silahlı qüvvələrində və ya digər silahlı birləşmələrində könüllü xidmət etməsi barədə kütləvi informasiya vasitələrindən, fiziki və hüquqi şəxslərdən (vəzifəli şəxslərdən), dövlət orqanlarından, o cümlədən xarici ölkələrin müvafiq dövlət orqanlarından məlumat daxil olduqda, Dövlət Miqrasiya Xidməti həmin məlumatları dəqiqləşdirmək məqsədi ilə Xarici İşlər Nazirliyi vasitəsilə xarici dövlətlərin səlahiyyətli dövlət orqanlarına sorğu göndərir. Göndərilmiş sorğu nəticəsində Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin dövlət və ya bələdiyyə orqanlarında, yaxud silahlı qüvvələrində və ya digər silahlı birləşmələrində könüllü xidmət etməsi barədə məlumatlar öz təsdiqini taparsa, Dövlət Miqrasiya Xidməti şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə bağlı icraata başlayır.*

*25-4. Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxsin vətəndaşlığa qəbul olunmaq üçün zəruri olan məlumatı qəsdən saxtalaşdırması və ya saxta sənəd təqdim etməsi məlum olduqda, Dövlət Miqrasiya Xidməti şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə bağlı icraata başlayır.*

*25-5. Bu Əsasnamənin 25-2 - 25-4-cü hissələrində nəzərdə tutulmuş qaydada şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə bağlı icraata başlandıqda Dövlət Miqrasiya Xidməti şəxsin dövlət qarşısında icra edilməmiş öhdəlikləri və ya Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslərin mənafeləri ilə bağlı əmlak öhdəliklərinin olub-olmaması barədə 1 ay müddətində araşdırma aparır. Öhdəliklərin olub-olmaması barədə araşdırma aparılması ilə əlaqədar səlahiyyətli orqanlara sorğu göndərilir. Sorğu göndərilmiş səlahiyyətli orqanlar müvafiq məlumatı 1 ay müddətində təqdim etməlidirlər. Eyni zamanda toplanmış sənədlər rəy verilməsi üçün Dövlət Təhlükəsizliyi Xidmətinə, Xarici Kəşfiyyat Xidmətinə və Daxili İşlər Nazirliyinə göndərilir. Həmin orqanlar 1 ay müddətində müvafiq rəy bildirmədikdə, bu, şəxsin Azərbaycan Respublikasının vətəndaşlığını itirməsinə etirazın olmaması kimi qəbul edilir. Dövlət Təhlükəsizliyi Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin və Daxili İşlər Nazirliyinin rəyləri və şəxsin dövlət qarşısında icra edilməmiş öhdəlikləri və ya Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslərin mənafeləri ilə bağlı əmlak öhdəliklərinin olub-olmaması barədə müvafiq məlumat alındıqdan sonra 1 ay müddətində Dövlət Miqrasiya Xidməti əsaslandırılmış rəy hazırlayır və həmin rəyi, habelə toplanmış digər sənədləri təqdim etməklə şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə bağlı məsələyə baxılması üçün məhkəməyə müraciət edir.*

*25-6. Azərbaycan Respublikası vətəndaşının dövlətin təhlükəsizliyinə ciddi zərər vuran davranışı, terror fəaliyyətində iştirakı və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətləri həyata keçirməsi, dini ekstremist fəaliyyətdə iştirakı, o cümlədən dini düşmənçilik zəminində dini məzhəblərin yayılması və ya dini ayinlərin icrası adı altında xarici dövlətdə silahlı münaqişədə iştirak etməsi və ya həmin münaqişəyə digər şəxsi cəlb etməsi, yaxud bu məqsədlə sabit qrup yaratması, habelə dini təhsil adı altında xarici dövlətdə hərbi təlim keçməsi ilə bağlı məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda, onun barəsində Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi ilə bağlı icraata həmin şəxs cəzanı çəkib qurtardıqdan və ya Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrində müəyyən olunmuş qaydada cəzadan azad olunduqdan sonra başlanıla bilər (bu Əsasnamənin 25-7-ci hissəsində göstərilən hal istisna olmaqla). Bunun üçün cəzanı icra edən orqan və ya müəssisə dini ekstremizm, terrorçuluq və dövlət təhlükəsizliyini təhdid edən digər ideyalardan islah olunmamış məhkum barəsində məlumatları müvafiq hökmün surəti ilə birlikdə cəza müddətinin bitməsinə iki ay qalmış cinayət işinin istintaqını aparmış orqana və Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərir. Həmin orqanlardan vətəndaşlığın itirilməsi məsələsinə baxılmasına dair razılaşdırılmış müraciət daxil olduqda, Dövlət Miqrasiya Xidməti şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə bağlı icraata başlayır.*

*25-7. Azərbaycan Respublikasının ərazisində olmayan vətəndaşın Azərbaycan Respublikasının hüdudlarından kənarda dini ekstremist fəaliyyətdə iştirakı barədə Xarici İşlər Nazirliyindən, Dövlət Təhlükəsizliyi Xidmətindən və ya Xarici Kəşfiyyat Xidmətindən daxil olmuş təsdiqedici sənədlər və ya digər sübutlar əsasında Dövlət Miqrasiya Xidməti həmin şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə bağlı icraata başlayır.*

*25-8. Bu Əsasnamənin 25-6-cı və 25-7-ci hissələrində göstərilən hallarda Dövlət Miqrasiya Xidməti əsaslandırılmış rəy hazırlayır və həmin rəyi, habelə toplanmış digər sənədləri təqdim etməklə şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə bağlı məsələyə baxılması üçün məhkəməyə müraciət edir.*

*25-9. Məhkəmə Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi ilə bağlı işlərə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxır.*[33]

*26. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, bərpa və ya Azərbaycan Respublikasının vətəndaşlığından çıxma haqqında Azərbaycan Respublikası Prezidentinin*

*sərəncamlarını Dövlət Miqrasiya Xidmətinə, Xarici İşlər Nazirliyinə və Daxili İşlər Nazirliyinə göndərir.* Dövlət Miqrasiya Xidməti və ya Xarici İşlər Nazirliyi qəbul edilmiş qərar barədə vəsatət qaldıran şəxsə yazılı məlumat verir. Eyni zamanda, Daxili İşlər Nazirliyi və ya Xarici İşlər Nazirliyi vətəndaşlığı təsdiq edən sənədləri verən orqanları (vəzifəli şəxsləri) müvafiq tədbirlər görülməsi üçün xəbərdar edir.[34]

27. Vətəndaşlıq məsələləri ilə əlaqədar bu Əsasnamədə nəzərdə tutulmuş sənədlər fiziki şəxslər tərəfindən əlaqədar dövlət orqanına təqdim edildikdən sonra ərizə-anket icraata qəbul edilmiş sayılır və baxılma müddəti həmin vaxtdan başlayır.

28. Savadsızlıq və fiziki *pozuntularına* görə müraciət edən şəxs tərəfindən sənədlərin imzalanması mümkün olmadığı halda ərizəyə bu barədə izahlı qeyd yazılmalı və sənədləşməni aparan orqan həmin faktı təsdiq etməlidir.[35]

29. Vətəndaşlıqla bağlı qaldırılmış vəsatətlərə əlaqədar dövlət orqanlarının hər biri tərəfindən 1 ay müddətində baxılır.

30. Vətəndaşlıq məsələləri ilə əlaqədar vəsatəti rədd edilmiş şəxs vəsatətin rədd edilməsinə səbəb olan halları aradan qaldırdıqdan sonra təkrar müraciət edə bilər.

31. Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, xitam və bərpa məsələləri ilə bağlı qəbul edilmiş qərarlar barədə məlumatlar "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sisteminə daxil edilir.[36]

32. Vətəndaşlıq məsələləri üzrə qəbul olunan qərarların icrası üzərində nəzarəti Azərbaycan Respublikası Prezidentinin *Administrasiyası* həyata keçirir.[37]

**Əlavə 1**

**Azərbaycan Respublikasının Prezidentinə**

**ƏRİZƏ-ANKET**

şəkil
uçun
yer

**Xahiş edirəm, məni Azərbaycan Respublikası vətəndaşlığına qəbul edəsiniz.**

| SUALLAR | CAVABLAR |
|---|---|
| 1. Soyadınız, adınız və atanızın adı (əgər soyadınızı, adınızı və ya atanızın adını dəyişmisinizsə, səbəbləri göstərilməklə əvvəllər daşıdığınız bütün adları, soyadları və ata adlarını sadalayın) | |
| 2. Doğulduğunuz gün, ay, il | |
| 3. Doğulduğunuz yer (respublika, şəhər (rayon), kənd) | |
| 4. Milliyyətiniz | |
| 5. Ailə vəziyyətiniz (nikahdasınızmı, dulsunuzmu, subaysınızmı) | |
| 6. Vətəndaşlıq mənsubiyyətiniz | |
| 7. Başqa ölkənin (ölkələrin) vətəndaşı olmusunuzmu (ətraflı göstərin: harada, nə vaxt və hansı ölkənin vətəndaşlığında olmusunuz, hansı yolla qəbul edilmisiniz və niyə çıxmısınız) | |
| 8. Azərbaycan Respublikasına nə vaxt gəlmisiniz | |
| 9. Azərbaycan Respublikasına gəlişinizin səbəblərini göstərin | |
| 10. Əvvəllər Azərbaycan Respublikasında olmusunuzmu, məhz nə vaxt (Azərbaycan Respublikasına gəlişinizin və Azərbaycan Respublikasından gedişinizin tarixi, məqsədi) | |
| 11. Azərbaycan Respublikasında mühakimə olunmusunuzmu və ya istintaqa cəlb edilmisinizmi (əgər edilmisinizsə, nə vaxt, harada hansı orqan tərəfindən və nəyə görə cəlb edilmisiniz) | |
| 12. Təhsiliniz və təhsil üzrə ixtisasınız (harada, nə vaxt və hansı təhsil müəssisəsini bitirmisiniz, əgər bitirməmisinizsə, nə səbəbdən) | |
| 13. Azərbaycan Respublikasına gəlməmişdən qabaq xaricdə harada və nə qismində işləmisiniz | |

| 14. Əmək fəaliyyətinə başladıqdan sonra icra olunan iş (ali və ya orta ixtisas təhsili müəssisələrində təhsil, hərbi xidmət daxil olmaqla). Bu bəndi doldurarkən idarə, müəssisə və təşkilatların Sizin işlədiyiniz dövrdəki adını, ünvanını, hərbi xidmətdəki vəzifəni göstərmək zəruridir | |
|---|---|

| **Ay və il** | | **İdarə, müəssisə və təşkilatın adı göstərilməklə, vəzifəniz** | **İdarə, müəssisə və təşkilatın ünvanı** |
|---|---|---|---|
| **daxilolma** | **çıxma** | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

15. Yaxın qohumlarınız (arvad, ər, valideynlər, böyük uşaqlar, qardaşlar və bacılar)

| **Qohumluq dərəcələri** | **Soyadı, adı və atasının adı** | **Milliyyəti** | **Vətəndaşlıq** | **İş yeri və vəzifəsi** | **Olduğu ölkə və yaşadığı ünvan** |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |

16. Yaşayış yerinizin dəqiq ünvanı və telefonlarınızın nömrələri (ev, iş) ___________________________

_____________________________________________________________________________________________

17. Özünüz və ya yaxın qohumlarınız haqqında nəyi bildirmək istəyirsiniz ______________________

_____________________________________________________________________________________________

18. Ərizəyə əlavə edilən sənədləri sadalayın ____________________________________________________

_____________________________________________________________________________________________

19. Azərbaycan Respublikası vətəndaşlığına mənimlə eyni zamanda aşağıda göstərilən yetkinlik yaşına çatmayan uşaqlarımı qəbul etməyi xahiş edirəm

| **Oğul, qız** | **Soyadı, adı və atasının adı** | **Doğum ili və ayı** | **Doğum yeri** | **Qeyd** |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

20. Azərbaycan Respublikasının vətəndaşlığına qəbul olunmaqda məqsəd

_____________________________________________________________________________________________

21. Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət edəcəyimə öhdəlik götürürəm.

22. Bəyan edirəm ki, mənim tərəfimdən təqdim olunan məlumatlar tam və dəqiqdir.

Mən xəbərdar edilmişəm ki, Azərbaycan Respublikasının vətəndaşlığına qəbul olunmaq üçün zəruri olan məlumatların qəsdən saxtalaşdırılması və ya saxta sənəd təqdim edilməsi Azərbaycan Respublikası vətəndaşlığının itirilməsinə səbəb ola bilər.[38]

«___» ________________                                        Şəxsi imza ___________

(gün, ay, il)

Xidməti qeydlər (Dövlət Miqrasiya Xidmətində doldurulur)[39]

~~Vətəndaş~~ ________________________________________________

~~a)~~ ________________________________________________

~~(pasportu vermiş orqanın adı)~~

________________________________________________ ~~tərəfindən~~

~~«___»________________ ildən~~ ~~«___»_______________ ilədək müddətə verilmiş pasporta~~

~~(gün, ay, il)~~ ~~(gün, ay, il)~~

~~b) Daxili İşlər Nazirliyi tərəfindən, _____________ rayon (şəhər) DİŞ tərəfindən ________ seriyalı ___________ nömrəli «___»___________19___ ildən~~ ~~«___»_______________19___ ilədək~~

~~(gün, ay, il)~~ ~~(gün, ay, il)~~

~~müddətə verilmiş əcnəbi vətəndaş üçün qeydiyyat vəsiqəsinə~~

~~v) Daxili İşlər Nazirliyi tərəfindən, ____________ rayon (şəhər) DİŞ tərəfindən _________ seriyalı _______ nömrəli «___»________________19___ ildən~~ ~~«___»_______________19___ ilədək~~

~~(gün, ay, il)~~ ~~(gün, ay, il)~~

~~müddətə verilmiş vətəndaşlığı olmayan şəxs üçün yaşayış vəsiqəsinə malikdir~~

Ərizə-anketi və orada göstərilmiş sənədləri qəbul etdi və doldurmanın düzgünlüyünü yoxladı

________________________________________________

(sənədləri qəbul etmiş əməkdaşın soyadı, adı və onun imzası)

«___» ______________________

(gün, ay, il)

**Əlavə 2**

**Azərbaycan Respublikasının Prezidentinə**

**ƏRİZƏ-ANKET**

şəkil
uçun
yer

**Xahiş edirəm, mənim Azərbaycan Respublikası vətəndaşlığıma xitam verəsiniz.**

| SUALLAR | CAVABLAR |
|---|---|
| 1. Soyadınız, adınız və atanızın adı (əgər soyadınızı, adınızı və ya atanızın adını dəyişmisinizsə, səbəbləri göstərilməklə əvvəllər daşıdığınız bütün adları, soyadları və ata adlarını sadalayın) | |
| 2. Doğulduğunuz gün, ay, il | |
| 3. Doğulduğunuz yer (respublika, şəhər (rayon), kənd) | |
| 4. Milliyyətiniz | |
| 5. Ailə vəziyyətiniz (nikahdasınızmı, dulsunuzmu, subaysınızmı) | |
| 6. Əgər başqa vətəndaşlıqda olmusunuzsa, hansı vətəndaşlığa malik olduğunuzu, onu nə ilə əlaqədar itirdiyinizi, nə vaxt Azərbaycan Respublikası vətəndaşlığını əldə etdiyinizi göstərin | |
| 7. Təhsiliniz və təhsil üzrə ixtisasınız (harada, nə vaxt və hansı təhsil müəssisəsini bitirmisiniz) | |
| 8. Məhkəmə qaydasında cinayət və ya inzibati məsuliyyətə cəlb olunmusunuzmu, nə vaxt və nəyə görə | |
| 9. Dövlət, idarə, müəssisə təşkilatlar və vətəndaşlar qarşısında icra edilməmiş öhdəlikləriniz vardırmı (konkret göstərmək) | |

10. Yaxın qohumlarınız (arvad, ər, valideynlər, böyük uşaqlar, qardaşlar və bacılar)

| Qohumluq dərəcələri | Soyadı, adı və atasının adı | Milliyyəti | Vətəndaşlığı | İş yeri və vəzifəsi | Olduğu ölkə və yaşadığı ünvan |
|---|---|---|---|---|---|
| | | | | | |

11. Əmək fəaliyyətinə başladıqdan sonra icra olunan iş (ali və orta ixtisas təhsili müəssisələrində təhsil, hərbi xidmət daxil olmaqla). Bu bənd doldurularkən idarə, müəssisə və təşkilatların Sizin işlədiyiniz dövrdəki adını, hərbi xidmətdəki vəzifəni göstərmək zəruridir.

| **Ay və il** | | **İdarə, müəssisə və təşkilatların adı göstərilməklə, vəzifəniz** | **İdarə, müəssisə və təşkilatın ünvanı** |
|---|---|---|---|
| **daxilolma** | **çıxma** | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

12. Hərbi mükəlləfiyyətə münasibətiniz və hərbi rütbəniz
________________________________________
13. Ev ünvanı ________________________________________________________________________
14. Xahiş edirəm mənimlə eyni zamanda aşağıda göstərilən yetkinlik yaşına çatmayan uşaqlarımın Azərbaycan Respublikasının vətəndaşlığına xitam verəsiniz.

| **Oğul, qız** | **Soyadı, adı və atasının adı** | **Doğum ili və ayı** | **Doğum yeri** | **Qeyd** |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

________________________________________________________________________________

pasportun seriyası və nömrəsi, kim tərəfindən və nə vaxt verilmişdir

15. Ərizəyə əlavə edilmiş bütün sənədləri sadalayın ________________________________________

«___» __________________________
(gün, ay, il)

Şəxsi imza ____________

Anket-ərizə və orada göstərilmiş sənədləri qəbul etdi və doldurmanın düzgünlüyünü yoxladı
________________________________________________________________________________
(sənədləri qəbul etmiş əməkdaşın soyadı, adı və onun imzası)

«___» __________________________
(gün, ay, il)

**Əlavə 3**[40]

**Azərbaycan Respublikasının Prezidentinə**

**ƏRİZƏ-ANKET**

şəkil üçün
yer

**Xahiş edirəm, məni Azərbaycan Respublikasının vətəndaşlığına bərpa edəsiniz.**

| SUALLAR | CAVABLAR |
